Nika Kvijinadze

# "Sevimli aktrisa üçün bəyaz rəqs"

*Pyes - monoloq*

Dilimizə çevirən: Zülfiyyə Dəvəliməhəmməd

**İştirakçılar:**
**Aktrisa.**
**Mimlər.**

Səhnə tamamilə boşdur - nə pərdə, nə səhnə arxası - tamaşaçı yalnız səhnənin kərpic divarını və qapısını görür. Səhnənin mərkəzində çarpaz asılqan qoyulub, asılqanda teatr kostyumları və künclərdə maskalar asılıb, solda qrim masası - lampalı ayna, masanın üstündə parikli və slyapalı maneken qadın başları, sağda - dəyirmi masa və iki stul. Tamaşaçı zala həzin musiqi sədaları altında daxil olur - bu musiqi fasilə vaxtı və tamaşadan sonra da onu müşayiət edəcək. Tamaşaçı ilk növbədə səhnənin dərinliyində, "kastinqə" gəlib, öz növbəsini gözləyən Aktrisanı görür. Tamaşanın birinci hissəsində heç nə dəyişmir - musiqi yoxdur, işıq olduğu kimi qalır. Hər şey ikinci hissədə, pyesin ikinci əsas iştirakçısı - Maestro gələndə, bütün ifadə vasitələrindən - səhnə, işıq, musiqi, səs və s. istifadə olunaraq dəyişir. Onun köməkçiləri - qara trikoda, ağ əlcək və ağ teatr maskasında iki Mimdir. Onlar - Ananı,Sinif yoldaşını,Şikayətçini, Primadonnanı, Müəllimi, Gözəlçəni, Pilotu təmsil edəcəklər.

## I hissə.

**Musiqi susur. Aktrisa yerindən qalxır və tamaşaçı tərəfə yönəlir. Aktrisanın əynində köhnə dəbli plaş, başında beret, boynunda ağ şəffaf şərf, gözündə qalın şüşəli eynək var.**

- Mən hələ çox gözləycəyəm?.. Elə bilirdim yaddan çıxmışam... Harada dayanım? Yəni mən ortada durmamışam?.. Buyurun... İşığı bir balaca azaltmaq olar?.. Yox, mənə maneçilik törətmir, sadəcə düşündüm ki... Mən kiməm? Aktrisa. Adım... Nömrəm? Nömrəm 45... Nə? Mən axırıncıyam - orda... **(kulisi göstərir)** heç kəs yoxdu... Heç hara, heç vaxt gecikmirəm. O ola ki, teatra. Düz qırx ildə yadıma gəlmir hansısa bir məşqə gecikəm. Sadəcə məndən xahiş etdilər ki, kimisə qabağa buraxım - mən də razılıq verdim... Hardasa on nəfər, çox yox. Onlar axı cavandırlar, tələsirlər... Əllərimi qaldırım? Yəni belə? Barmaqlarımı tərpədim?.. Dönüm?.. Bu nəyə lazımdır axı?.. Paho, burda sizin nə qədər kostyumunuz var... Bəlkə plaşı çıxarım?.. Lazım deyil, deyil də... Bəli, myuzikllərdə oynamışam. Sayım?.. Şekspiri də oynamışam, "Romeo - Cülyettanı"...

→



Yox, o myuzikl deyildi. Necə yəni kimi?.. Əlbəttə, Cülyettanı. Təsəvvürə gətirə bilmirsiz?.. Mən özüm də hərdən güzgüyə yaxınlaşmaqdan qorxuram. Xüsusən səhərlər... Ay, bağışlayın, mən nəyisə düz demədim... Sizinçün nə oxuyum?.. Nə?.. Yaddaşım hələ məni yarı yolda qoymayıb. Bu başda, cavan oğlan, üç yüzdən artıq rol var. Yunan faciəsindən nəsə yarıyar?.. Mənnən zarafatınız var?.. Hansı uşaq şeri? Bəlkə mən bəbə yaşından çıxmamışam?.. Yaxşı da, oldu, mən çalışaram... O vaxt məktəbdə, müsabiqədə oxumuşdum. Hə, hə birinci sinifdə. Yadımdadı, müsabiqənin dünəni anamla mənim bütün gecə gözümüzə yuxu getmədi. Özümdə deyildim. Qorxurdum. Bilmirdim heç bu qədər qorxaqmışam. Anam mənə ürək-dirək verirdi... Necə? Anam barədə deməyim?.. Bağışlayın. Mərkəzə tərəf - başa düşdüm... **(Şeri söyləyir).**

Yaxşı, yaxşı, dayandım, bağışlayın. Bilirəm, hərdən ağzım qızışanda məni dayandırmaq çətin olur. Neynim, öyrəncəliyəm... Oxuyuram. Niyə oxumuram?! Səsim də var... Hə, istəyirsiz sizinçün lap romans oxuyum?.. **(Oxuyur)**

Anlamadım?.. Nə müasir? Bəs nə oxuyum sizinçün? Bəlkə bunu? **(Oxuyur)**

O, Arlekino, Arlekino... **(Öskürür, boğazını tutur)**

Bilirsiz, düzünə qalsa, bu gün səsim yerində deyil - keçib gedər, narahat olmayın. Dünən qonşumla bir balaca tutaşdıq. Mənə dirəşib ki, musiqinin səsin çox verirəm. Neynim, ağır eşidirəm də. Adam kimi başa salıram ki, vəziyyətim belədi, o da iki ayağını bir başmağa dirəyir ki, güya əsəbləri tab gətirmir. Bəs mənimki gətirir? Qonşumun dili Ranevskayanın dili kimi tikanlı, coşmağı da Sara Bernarı gör, onu gör. Gəl indi buna döz də... Qısası, o boyda bina onun səsindən lərzəyə gəlir!. Ay, üzr istəyirəm mən yenə haşiyədən kənara çıxdım...Yaxşı, nə oynayım?.. Rəqsi deyirəm... Əlimdən, daha doğrusu. Ayağımdan gəlir... Kankan istəyirsiz?.. O da baş üstə! **(Oxuyur və rəqs edir. Birdən belini tutaraq dayanır).**

Keçib gedər. Olur da. Bir balaca tutdu. Keçdi... Bax, görürsüz, düzəldi. (Step oynayır).

Nə?.. Elə bu?.. Necə yəni yaramıram? Mən hələ heç nə göstərməmişəm, rica edirəm, mənə bir az vaxt verin... Heç olmasa bir neçə dəqiqə. Mən sizə Rostandan demək istəyirdim... Sirano de Berjerakın monoloqunu. Ölüm səhnəsini, yadınıza gəlir?.. Necə?...Əsl aktyor kişi - qadın rollarını bölmür. **(Həyəcanla zala baxaraq, tez-tez E.Rostanın "Sirano de Berjerak" pyesindən parçanı söyləyir. Öz-özünü dayandırır).**

Ən yaxşısı, qoy sizinçün rəqs eləyim. Lap elə rok.

Birdən ağlınıza gələr ki, mən həyatdan geri qalmışam hə? Elə şey yoxdu. Başqaları ağlayır - sıtqayır, mənsə yox. Kompyuterim var, mən bütün dünyada baş verənlərdən xəbərdaram. Dünən hətta velosiped də sürmüşəm. Cavanlara rəğbətim var, Makdonaldsda söhbətim də tutur... Bax da, mən yenə haşiyədən çıxdım. Dayanın, hara gedirsiz?..

→

**(Gözlənilmədən projektorlar sönür, səhnədə növbətçi işıq yanır. Aktrisa yerində donub qalır).** Getdilər... Fenita lya komediya. Yaxşı olur sənə, ay köhnə qaloş! Hələ çox qaçacaqsan kastinqlərə!.. **(Yorğun halda qrim masasının qarşısındakı stula əyləşir, plaşının cibindən viski qumqumasını çıxarır, o yan bu yana baxıb, bir qurtum içir. Özünə güzgüdə baxmağa çalışır. Sonra ayağa qalxır, plaşını çıxarır, eynəyini taxır və yenə də güzgüyə baxır).** Yox, sabahdan başlayıram arıqlamağa. **(zala)** Eşidirsiz? Sabahdan başlayıram arıqlamağa!

Əcəb sakitlikdir!...Gizlənib...Ey, Maestro, kimi aldatmaq istəyirsən?.. Soruşuram, kimi aldatmaq fikrin var?..Özünü görməməzliyə, eşitməməzliyə vurma. Kim - kim, ancaq mən bilirəm ki, sənin gözlərin heç vaxt yatmır. Hər şeyi görür, qulağın hər şeyi eşidir, həmişə ayıqsan... Doladın məni... Nömrə 45!... Nifrət eləyirəm! (Çığırır). Nifrət edirəm! Nifrət! Nifrət!

**Birinci hissənin sonu**

### 1. Maestronun gəlişi.

Gözlənilmədən sağ kulisdən yanmış lampa - şar çıxır, dəyirmi masanın üstündə yellənir. Sonra qrim masasının lampaları yanır, asılqanın da işıqları yanır və o irəli çəkilir.

- Kim var burda? ... Eşidirsiz məni? Burda kimsə var? Sabahınız xeyir. Maestro. Oyandız?... Məni gözləmirdin? Bəli, düz tapmısan mənəm. Gəlmişəm. Gəlməyə bilməzdim... Nolub, nitqin quruyub?.. Başa düşürəm, mən artıq sənin marağından kənardayam. Ancaq nə vaxtsa başını itirirdin, sevgilindim. Yadından çıxıb? Mən səhnəyə çıxanda çiçəyin çırtdayır - kulislər titrəyir, projektorlar qığılcım saçır, gözəl səslər eşidilirdi! Sən idin, sən! Onda mən sənə lazım idim. Mənimlə öyünür, fəxr edirdin. Atam kimi. Bəli, atam adi işıqçı idi, lakin sənin təbiətini ondan yaxşı heç kəs bilə bilməzdi. Anam da mənimlə fəxr eləyirdi. Yadındadı, bax orda, oturURdu? Hə, adicə suflyor idi. Ancaq heç kəs onun qabağında açıq pyes görməzdi - mətnləri əzbər bilirdi. Oğlum da mənnən öyünürdü. O , həmişə bax, o lojada oturardı, tamaşa vaxtı onun üzündə göz yaşları işarardı. Ondan yaxşı bəstəkar çıxardı... İndisə... Nə oğlum var, nə anam, nə də atam... Sən də artıq mənim həyatımda yoxsan... Sən heç bilirsən təklik, tənhalıq nədir?

### 2. Gələcək ulduzun təzimi.

Qaraçı xoru eşidilir. Mimlər oynamağa girişir, Aktrisanı da rəqsə çağırırlar. Musiqi qəflətən kəsilir. Mimlər donub qalır, Aktrisaya tamaşaçı zalında birinci sıranı işarə edirlər.

→



- Hə, orda, bizim klubda, birinci sıradakı mənəm. Mənim heç yeddi yaşım da yoxdur.

**(Aktrisa qrim masası arxasında əyləşir və başına iri qırmızı bant bağlayır).** Anamın dram dərnəyi tamaşa qurub, Ostrovskinin "Cehizsiz qız"nı. Pərdə qalxır və anam səhnəyə çıxır. **(Mim çiynində şal səhnəyə çıxır, Ananı təsvir edir).**

Mən sevinc içindəyəm!.. Gözüm anamdadı, dilindən çıxan hər sözünü tuturam. Mənə elə gəlir ki, səhnədəki anam yox, mənəm və mən roldayam...

**(İki nəfər Anamın qulluğundadı - mülkədar və məmur. İkinci Mim səhnəyə çıxır, növbə ilə mülkədarla məmuru təsvir edir).**

Mülkədar xoşuma gəlmir, Məmurdan xoşum gəlir, hərçənd hər ikisi anamın əhvalını pozurlar. Anamınsa əksinə, Mülkədardan xoşu gəlir. Tamaşanın sonuna yaxın anam da, mən də hər ikisindən o qədər bezirik ki, mən ikisini də boğmağa hazıram. Birdən, dəhşət! Məmur tapançasını çıxarır, Anamı nişan alır. Mən onun dediyini eşidirəm: "Onda, heç kəsə qismət olma!" Güllə səsi eşidilir. Anamın şalı çiyinlərindən sürüşüb düşür. Və anam, mənim anam ölür. Mənə elə gəlir ki, mən də düşür, ölürəm. **(Aktrisa Ostrovskinin "Cehizsiz qız" pyesindəki Larisaya dönür. O, başındakı qırmızı bantı çıxarıb, sinəsinə yaxınlaşdırır - elə bil qanlı yarasının üstünə qoyur).**

Ah! Minnətdaram!.. Əzizim, mənə böyük yaxşılıq elədiz! Tapançanı bura, bura, masanın üstünə! Heç kəs müqəssir deyil, heç kəs... Mən özüm... Heç kəsə mane olmaq istəməzdim! Yaşayın, hamınız yaşayın! Siz yaşamalısız, mənsə... ölməliyəm... Mən heç kəsdə günah görmürəm, heç kəsdən incimirəm... Hamınız yaxşı adamlarsız... mən sizin... hamınızı sevirəm!.. Ana!.. Mən səhnəyə qalxıb qatilin üstünə atılıram. Qışqırıb **(zingildəyir)**, dişləyirəm. Birdən anamı görürəm. Sağ - salamat! O dayanıb durub, heyrət içində mənə baxır. Ölü bir sükut çökür.

Anam və Məmur gözdən itirlər. Sonra, sonra mən alqışları eşidirəm. Gurultulu alqışlar! Mən qeyri-adi xoşbəxtlik içindəyəm. Və onda, onda mən qeyri-ixtiyari baş əyirəm. Bu uşaq şıltağı, adi baş hərəkəti, reverans deyildi. Mən əsl peşəkar artist kimi baş əyirdim! **(Aktrisa və Mimlər baş əyirlər).**

Bax, onda, hə onda, sən məni zəhərlədin, öz hökmünə tabe elədin.

### 3. Mən qüdrətli aktrisa olacağam.

**(Klassik musiqi səslənir, Aktrisa məktəbli qız kimi - və səhnə önündəki stula yaxınlaşır, stulun üstündə açıq kitab var.**

**Aktrisa kitabı əlinə alır və V.Belinskinin " Ədəbi arzular" ından parçanı oxuyur, sonra saçına 2 ağ bant taxır, ağ önlük geyinir. Mimlər onu səhnədə rəqsdə hərləyir oxuyur:)**

→

- " Siz də teatrı mənim kimi sevirsinizmi, yəni gənc adamın qəlbinin var qüvvəsi, bütün ruh yüksəkliyi ilə?.. O, əsl sənət məbədidir, oraya daxil olarkən siz həmin dəqiqə torpaqdan ayrılır, həyati münasibətlərdən azad olursunuz!.. Burda öz dərdinizə acımırsınız, öz xoş halınıza sevinmirsiniz, narahat olmursunuz, burada sizin soyuq "mən" iniz qızğın məhəbbət atəşində yoxa çıxır... Gedin, teatra gedin, əgər bacarsanız onda yaşayın və ölün..." **(Mim - Ana çiynində şal gəlir).**

Bəli, ana, mən aktrisa olmaq istəyirəm. Ancaq mənim səbrim tükənir, bəs mən nə vaxt böyüyəcəyəm?... Nə dərsı! Yadından çıxıb? Bu gün məktəbdə tamaşa var. Mən - Qar kraliçayam!..

**(Ana gedir. Aktrisa Qar kraliçası kimi geyinir).**

Budur, o özünün buz sarayındadır - soyuq, əlçatmaz! Qarşısında isə axmaq, balaca Kay sürünür!...

**(Mim - sinif yoldaşı əlində gül dəstəsi gəlir).**

Sənsən, mənim sinif yoldaşım? Allahım, bu necə çoxdan olub! O məni çox sevirdi, mənimsə ağlımdakı teatr idi. **(Sinif yoldaşı gedir).**

Eşidirsən, mən ağlımı itirmişəm, mən dəlicəsinə sənə vurğunam. Qorxurdum ki, mən böyüyənə qədər bütün rollar oynanar, mənə rol qalmaz. Onda mən neynərəm? Bəli, tez, tez ora! Mənim aləmimə, mənim teatrıma! Oraya, harda ki, xəyal, fantaziya qələbə çalır! Harda ki, arzular həqiqətə çevrilir...

## 4.Teatr özünün əsl simasını açır.

- Və artıq sən mənə əsl simanı göstərməyi qərara aldın. Bircə dəqiqəlik. Bircə anlıq.

**(Aktrisa asılqanın yanında əyləşir, yanında əlində gül dəstəsi olan Mim - sinif yoldaşı donmuş vəziyyətdə dayanıb, ikinci Mim Romeonu təsvir edir. Onun başında beret, əlində qılınc var).**

Mən yenə də birinci sırada oturmuşam, 16 yaşım var, məktəbi bitirməkdəyəm. Bizim şəhərciyə əsl teatr gəlib. Əlimdə bir dəstə gül var. Bunu mənə sinif yoldaşım bağışlayıb. Yanımda əyləşsə də, artıq yadımdan çıxıb. **(Sinif yoldaşı gedir).**

Özümsə büsbütün orda, səhnədəyəm. Yuxularımın qəhrəmanı Romeonun olduğu yerdə. O çox gözəldir. Mən onu sevirəm, axı mən Cülyettayam.

**(V.Şekspirin "Romeo və Cülyetta"sındakı Cülyetta kimi görünür. )**

→



- "Romeo, ah, Romeo, sən hardasan?
Əgər ovçu səsi olsaydı məndə,
Səsləyərdim geri öz tərlanımı.
Köləlik- tutqun səs, bağıra bilməz.
Mən azad olsaydım, dönə -dönə hey,
Elə qışqırardım, Romeo adı
Yayılardı bütün bu kainata".

Pərdə enir. Mən səhnəyə şığıyıram. Mən Romeoya gül dəmətini uzadıram,özümsə bütün vücudumla ona tərəf meyilliyəm... Və birdən qarşımda yorğun, yaşlı bir aktyor görürəm. Ondan üfunət qoxusu gəlir və onun pırtlaşıq, qalın qrim qatı ilə suvanmış yanağından sel kimi tər axır.

Romeo yox olur.

Və mən artıq nə Cülyettayam, nə də şahzadə. Heç bir şahzadəm də yoxdur və mənim büllur qəsrim dağılır, daşı daş üstə qalmır...

Həmin anda səni cəhənnəmə göndərmək, həyatdan silmək lazımıydı. Mənsə aşiq olmuş, vurğun bir yelbeyinəm, məndən öz mənafeyin üçün xətrin istəyən cür istifadə eləyə bilərsən.

## 5. Debüt.

- Ax, səhnədəki o ilk addımlar! Projektorların sehirli işığı, sənin hər bir hərəkətini, sözünü, qəlbinin döyüntüsünü izləyən yüzlərlə bərəlmiş gözlər, səhnənin başındakı çəkisizlikdə ecazkar bir uçuş.

**("Faust" əsərindəki Marqarita kimi görünür. Mimlər əvvəl həbsxana nəzarətçilərini, sonra isə cəlladları təmsil edirlər.)**

- Demək,
Bu mənim ömrümün son səhəridir?
Hə, bu gün toyumuz olaydı gərək!
Bunlar çələngimin çiçəkləridir...
Bu bəla üz verdi mənə indicə.
Bax, aman günüdür, birdən deyərsən -

→

Qrethenin yanında olmuşam gecə...
Qorxma, görüşərik yaxında, hökmən.
Lakin görüşlərdə bu mümkün deyil.
Necə də axışıb gəlir, gör, hamı!
Küçələr, meydanlar tutmur adamı...
Odur, zəng səsləri gəlir elə bil,
Odur, qırdı hakim artıq əsanı!
Ah, məni kim isə cəld yaxalayır,
Burub qollarımı bərk-bərk bağlayır...
Edam kürsüsünə aparırlar... Ah!..
Elə güman edir - hər baxan bu an
Balta öz boynunu vuracaq... Aman...
Bir məzar sükutu çökdü hər yana...

**(Alqışlar eşidilir. Aktrisa baş əyir).**

Faustdakı Marqarita mənim teatrda debütümdür. Zal alqışlayır. Mənə elə gəlir ki, müəllif özü mənə, öz Marqaritasına gül atır. Səhnə arxasında anam ağlayır. Sevincindən! Səhnəyə Romeo çıxır - həmin o yaşlı aktyor. İndi o mənim həmkarımdı, həm də pərəstişkarım. O qarşımda çökür və nəsə deyir, deyir...

**(Mim - Müəllim, boynunda uzun qırmızı şərfdə səhnəyə çıxır).**

Bir də səhnənin arxasında Müəllim dayanıb və onun gözlərində sevinc oxunur. O tamaşanın rejissoru, həm də dahi alçaqdır. Dahi olduğunu mən tez başa düşdüm, amma alçaq olduğunusa bir az gec. Müəllim məndən ötrü dəli-divanəydi. Mən də onu sevirəm, sevirəm!

O, Fausta oxşayır, xeyr, o Faustun özüdür: - yaxşı təhsil görmüş, hərtərəfli istedada malik və gözlərində həmin yaradıcı işıltıdan birisi!

**(Müəllim yox olur. Mim - Primadonna gəlir - enli şlyapada və uzun muştüklü siqareti də ağzında).**

Bu da Primadonna, onun aşnası, lojada oturub və paxıllıqdan partlayır. Neçə il sən teatrda fironluq eləyirdin, neçə il sən heç kəsi səhnəyə buraxmırdın!.. İlk böyük rolumu alana qədər bilsəniz, mən nə qədər göz yaşı axıtmışam!

⟶



Yadımdadı, ilk dəfə teatra gəldiyim gün sən deyən sözlər çox yaxşı yadımdadı.

**(Primadonnanı təsvir edərək)** - Qız, mən sənin kefini pozmaq istəmirəm, amma sən nəyə baş qoşduğunu yaxşı bilməlisən. Teatr - elə bir maşındır ki, hətta ən güclüləri belə əzir. Burda çox şey var. "Dahilər" var , "istedadlılar "var, "bacarıqlılar" var, hətta təsadüfi insanlar da var, amma onların əksəri fərsiz kütlədir. Əgər sən teatrda normal insana rast gəlsən, hesab elə ki, bəxtin gətirib. Tamaşaçıya gəlincə, düzünü deyim, onların çoxunun sənətdən başı çıxmır, ancaq çox vaxt razılıq bildirən də onlardır. Hələ tənqidçilər, jurnalistlər var, onlara baş qoşmasan yaxşıdı, yoxsa gecələr gözünə yuxu getməz. Mənim sənə tövsiyyəm budu ki, əzizim həmişə yanımda ol, peşman olmazsan!.. (Primadonna gedir).

Mən hər zaman səninləydim. Sənin kölgəniydim. Sənsə utanıb qızarmadan məni atdın, çoxlarını atdığın kimi. Yetər! Sənin fironluğun bitdi!.. Mən sözümü dedim, zal da məni eşitdi.

### 6. Obrazlar kaleydoskopu 1.

**(Səhnənin mərkəzində pərdə enir, arxa tərəfdə kostyum və rekvizitlər olan asılqandır. Aktrisa pərdənin arxasında paltarlarını bir-bir dəyişərək, yenidən səhnədə görünür, oynadığı obrazları təqdim edir - Küpəgirən qarı, Zoluşka, Janna Dark, Karmen... Mimlər növbə ilə Aktrisaya paltar dəyişməkdə kömək edirlər. Həmçinin onlar növbə ilə səhnədə görüküb, tamaşaçının diqqətini çəkirlər).**

### 7. Teatra qarşı peşmançılıq.

- Mən Mariya Styuartam. Yelizavetanı isə Primadonna oynayır. Aramızda əsl müharibə gedir. Bir-birimizə nifrət edirik. Truppa Primadonnanın tərəfini saxlayır. Atılmış məşuqəyə ürəkləri yandığına görə yox, məni qəbul etmədiklərinə görə... Axı mən, necə deyərlər, istedadlıyam. Bir də mən hər zaman həqiqəti deyirəm. Buna görə də mənim dostlarım yoxdur. Romeo əclaf çıxdı. Bir dəfə məni ağlatdılar, mən də axmaq kimi onun boynuna sarıldım. O az qaldı ki, məni zorlasın. Elə pərdənin arxasındaca! Bu zaman hətta məni sevdiyinə belə and içirdi. Qısası çoxunun məni görməyə gözü yoxdu, hər addımda paxıllıq, həsəd rastıma çıxır. Mənim heç vecimə də deyil. Sabah Müəllim məni toy səyahətinə aparır. Uşağımız olacaq !...

**(Qapı döyülür . Primadonna gəlir.)** Buyurun. Sizdən nə əcəb, Primadonna?.. Başa düşmürəm, açıq danışın... Bilsiz ki, sizdən qorxmuram... Mənim öz səbəbim var, çünki sevmişəm, başa düşün ki, sevmişəm. O da məni sevir. Neynək iş belə alındı... Mən nə üçün ona inanmayım axı?.. Siz onu məndən daha yaxşı tanıyırsız? Ola bilər, bunun məsələyə nə dəxli? O sizin yanınıza qayıdan deyil... Çıxın gedin, xahiş edirəm, tamaşadan əvvəl gərək fikrimi cəmləyəm...

⟶

Necə də kinayəli bir təbəssümlə mənə baxır? Hər kəlməsi nə qədər zəhər dadır, öd püskürür. Sən demə, o mənə dostmuş, Müəllim isə ən qəddar düşmənim! Yadındadır, onun mənə dediyi?

**(Primadonnanı yamsılayır)** - Əzizim, Müəllim ancaq teatrla, həm də teatr üçün yaşayır. Aktyorlar onunçün müqəvvadı. Bəzən ona teatr məkanı dar gəlir və o gerçək həyata daxil olur. İndi də belədir. Əzizim, o səhnədə maksimum həqiqətə nail olmaq üçün qəsdən bizi zəhərlədi. Sən hələ də mənə inanmırsan?.. Bilki, o özü məni sənin yanına göndərib. O istəyir və xahiş eləyir ki, uşağı saldırasan, yəni abort. Ona sənin uşağın lazım deyil!.. (Primadonna yox olur).

Ona uşaq lazım deyil!.. **(Rejissor köməkçisinin səsi eşidilir: "Diqqət, hamı səhnəyə yığışsın. Tez, tez!..")**

Yox, mən getmirəm!.. Ayaqlarım getmir!.. Ağrıdır məni!..

Bu sənin işindi Mayestro, bilirəm! Məni sındırmaq istəyirsən ki, mən vecsiz, boş bir şeyə çevrilim? Düzələn iş deyil. Mənim cəmi bir həyatım var və mən onu sənə sərf etmərəm. Elə bilirdim sən xeyirxahsan, amma sən qəddarın birisən! Elə bilirdim sən əsil dostsan, amma sən düşmənsənmiş! Elə bilirdim sən sənətə xidmətdəsən, amma sən, sənə rəhbərlik edənlərə xidmət göstərirsən! Sən işıq deyil, sonu görünməyən qatı zülmətsən! Mən gedirəm, eşidirsən? Qoy bu mənim son çıxışım olsun! **(Mariya Stüart obrazında görünür. Mimlər gözətçi olurlar).**

## 8. Toy paltarı.

**(Aktrisa körpəni yatızdırır, oxşayır, öpür. Sinif yoldaşı gəlir).**

Bu gələn sənsən, ey mənim sinif yoldaşım... Görürsən də mən evə qayıtdım. Yox, mənimçün artıq teatr deyilən şey yoxdur. Səhvin var, ortada heç bir böyük aktrisa yox idi... Sən necə, eşitdim rəssam olmusan?.. Bunu sən çəkmisən? Rənglər, ovqat, əhval-ruhiyyə... Qəribə üslubun var. Tanış sifətdi... Mənəm?.. Aman Tanrım, sən hələ də məni sevirsənmiş... Onu bil ki, məhəbbət barədə daha heç bir kəlmə belə eşitmək istəmirəm!.. Hər şey ötüb keçdi... **(Sinif yoldaşı gedir)**

Qar yağır!.. Üzümə necə düşüb, o dəqiqədə əriyirsən. Danış, mənimlə, qar! Danış görüm sən orda, göydə neynirdin? Yəqin ki, sən orda tək tənha darıxırdın, ona görə yerə düşmək istədin. Özünü anlamaq necə də çətin olurmuş!.. Bir qar dənəsi, iki, üç qar dənəsi... Milliardnan qar dənəsi... Hamıya, kimin qəlbi ağrısa, qoy hamıya çatsın... Ey, qar, bəlkə səninçün harda olmağın heç bir əhəmiyyəti yoxdu, göydə, ya yerdə - sən darıxmırsan. Bəlkə, sənin heç bir arzun yoxdu. Yağırsan, ona görə ki, yağmalısan... O vaxt mən də qar dənəsi olmaq istəyirdim. Heç bir səbəbsiz uçardım, heç nə hiss etmədən heç nəyi düşünmədən, yox olana qədər... Bax mən varam və eyni zamanda yoxam... Bilirsən, dünən yuxuda görmüşəm ki, səhnəyə çıxmışam, mətn isə yadımdan çıxıb. Utanıram, xəcalət çəkirəm. Qorxuram. Zal narazıdır, fit çalan var. Müəllimi görürəm. Sən onu tanımırsan.

⟶



Murdar bir dayıdır. O birinci sırada oturub, istehza ilə gülür. Mənə elə bir acıq gəlir ki, heç dözə bilmirəm! Səhnədən düşürəm, onun üstünə atılıb, başlayıram boğmağa. Müəlliminsə heç nə vecinə deyil, qaqqıldayıb gülür, gülür... Anam gəlir. Yox, ana, hər şey yaxşıdır... Xətrimə dəyən bir kimsə yox!.. Sənə elə gəlir. Görürsən, mən hətta gülümsəyirəm... **(Ana yox olur. Sinif yoldaşı peyda olur).**

Ey, Sinif yoldaşım, bu nə iri qutudu, belə? Nədir? Gəlinlik paltarı!.. Sən mənlə evlənmək fikrindəsən?.. Zarafat eləyirsən?.. Sən çaşmısan nədi?.. Başın xarab olub? Yox, heç gözləməzdim... Bilmirəm, sənə nə deyim... Bilmirəm, heç nə bilmirəm... Yaxşı, qoy bir fikirləşim... Hərcənd ki, nə fikirləşmək, mən hə deyirəm - hə! hə! Mən razı!.. **(Sinif yoldaşı yoxa çıxır).**

Mənim balam, bax, gör sənin anan necə də gözəlmiş!.. Artıq biz bir yerdə yaşayasıyıq. Sən alim olacaqsan, yox, həkim! Bəlkə də memar? Qısası, kim olursan ol, əsas odu ki, teatrdan uzaq olasan. Görərsən biz xoşbəxt olacayıq, mütləq!..

Bu nə qəribə arabadır pəncərənin altında?.. Onu mənim dalımca sinif yoldaşım göndərib?.. Surprizə bax!.. Ana, bir az tez ol, öz toyuma gecikirəm... **(Aktrisa xəyali arabaya əyləşir. Mimlər atları təsir edirlər) .**

Arabaçı, tez sür!.. Bir az da tez!.. İrəli!.. Keçmişdən uzaqlara! Rədd olsun tərəddüdlər! Qoy yeni yol, yeni həyat olsun!.. Vacib odur ki, kimsə səni gözləsin və sənin barəndə düşünsün!.. Arabaçı, sür, becid sür!.. Mən çaparaq getmək üçün ürəyim gedir! **(Sirk musiqisinin sədaları eşidilir. Mimlər təlxəkləri əvəz edir).**

Əcəb gözəl səslərdir!.. Ürəyim niyə belə tez döyünür?.. Səyyar aktyorlar? Təlxəklər?.. Onlar haraya çağırırlar?.. Qəribədi!.. Əcəb şənlikdi!.. Ey, siz hara belə? Məni də gözləyin!.. Ana, bir baxım, tez də qayıdıram...

## 9. Sirk.

**(Sirk musiqisini qeyri adi kosmik səslər əvəz edir. Zaman elə bil ki, yavaşıyır. Mimlər rapidsayaq hərəkət edirlər, Aktrisanın dedikləri təsvir olunur).**

Bu əsl sirkdir!.. Mən sirkin ortasında dayanmışam!.. Ayaq qoymağa yer yoxdur - məşq gedir! Budu bax kəndirbaz qız ipin üstündə müvazinətini saxlamağa çalışır. Hərəkətlərindəki zərifliyə bax!.. İki təlxək bir-birini qapazlayır!.. Gözbağlıca kartları düzüb qoşur! Ayı balasına baxan qəşş eləyər: pəncələri üstündə dayanıb, mənə baş endirir. Xoş gördük! Kimsə gümbəzin altında ilan kimi qıvrılaraq uçur! Ehtiyyatlı olun! Mənim əlimdən tuturlar. Akrobatlar! Məni dövrəyə alır - fırladırlar, üstümdən hoppanırlar - uşaq kimi sevinirlər!.. **(Kəskin səs aktrisanı gerçək həyata qaytarır).**

⟶

Bu, mənədi?.. Heç nə, elə belə gəldim... Mənim çıxışım varmı?.. Bilmirəm... Gedirəm, gedirəm... Bəs mənim çıxışım!... Mən sizin başınızı ağrıtmıram, ancaq sizi anlamadım... Göstərim?.. Başa düşmədim... Göstərim?.. **(Aktrisa Çarlı Çaplini təqlid edir və mahnı ifa edir).**

**(Sinif yoldaşı gəlir).** Ey, mənim sinif yoldaşım, sənə sözüm var. Bil ki, bizim toyumuz baş tutan deyil! Mən sirkə qəbul olundum! Onların qoca təlxəyi ölüb və mənə sərfəli kontrakt təklifi var. Rəngin qaçıb... Kefini pozma... Mən özümü aldadırdım. Elə səni də. Yeni həyata yalanla başlamaq heç yaxşı deyil. Həqiqətən... Həqiqətsə odu ki, mən səni sevmirəm. Bunda heç kimin günahı yoxdur. Bacarsan, məni bağışla və zəhmət olmasa mənim oğluma bax. Mən rahatlanan kimi sizi öz yanıma gətirəcəyəm. **(Qatar fiti səslənir. Təkərlərin səsi getdikcə artır).**

Ey, mənim sinif yoldaşım... Sən qatarın arxasınca qaçırsan. Sözsüz-filansız. Gözümə zillənmisən, elə bil məni ömürlük yadda saxlamaq istəyirsən. Və qatarın arxasınca yüyürürsən. Qaçırsan, qaçırsan, qaçırsan...

## 10. Teatra qayıdış.

**(Aktrisa və Mimlər təlxək paltarında. Aktrisa, üzü tamaşaçı zalına, səhnənin kənarında əyləşir. O tamaşaçılarla əylənir. Mim-müəllim gəlir).**

A, bu kimdi?.. Yoxsa müəllim özü təşrif buyurub?.. Bu nə hörmət? Bu nə ehtiram? Köhnə dosta baş çəkməyə gəlmisən?.. Bəlkə ələ salmağa?.. Sənə nə lazımdır axı? Niyə gəlmisən?.. Diqqət! Ay camaat, aranızda cani var! Bax, orda, beşinci sırada oturub. Görürsüz də, gözlərini necə yayındırır. Südəmər körpələrin qanını içəndi. O, adam yeyəndi! Tutun onu!.. Ehtiyatlı olun, cibində tapança var! Cani, qatil!

Elə bu əsnada mən tanış səs eşidirəm. **( Müəllim kimi geyinir).**

Yox, cahil sənsən, sən! Ay camaat, bu müqəvvaya baxasız! Əslində bu, dahi teatr aktrisasıdır! Onu bütün dünya axtarır, o isə burda arenada oyun çıxarır, istedadını öldürür! Siz belə şey görmüsünüz! Mən səni əllərimdə gəzdirərdim! Sən mövsümün ən təzə tamaşalarında məşğuldun, ən yaxşı rollar səniniydi. Axı, sənin nəyin çatmırdı? Qəddar məxluq! Tutun onu, geriyə, teatra aparın, onun yeri oradır! O özünə məxsus deyil! Teatra məxsusdur!

Bu əsil sirk idi! Tamaşaçı sevincdən ağlayırdı. Hamı elə güman eləyirdi ki, bu növbəti təlxək hoqqasıdı. Razı qaldın? Mən sənə qayıtdım Maestro...

→



## 11. Pilot .

**Aktrisa Dezdemona qiyafəsində. Səhnənin önündə Mim-Pilot boynunda uzun sarı şərfdə. Otellonun səsi:**

**Otellonun səsi:** - Bu axşam, bir söylə, yatmış ülkərim,
Dua etmisənmi?

**Dezdemona:** Bəli, sərvərim

**Otellonun səsi:** Günahın qalıbsa, bunun üçün də Allah qarşısında, Tanrı önündə dua et, tezliklə günahını yu.

**Dezdemona:** Sənin fikrin nədir, bu sözlər nə demək?

**Otellonun səsi:** Di başla, dua et, durma bir an da, cəld ol, Gözləyirəm səni bu yanda. Hazır deyilsənsə ölümə ruhən, səni öldürmərəm əsla, qətiyyən. Allah eləməsin, eyləyəm bunu, heç vaxt öldürmərəm sənin ruhunu.

**Dezdemona:** Necə, danışırsan qətlimdən?

**Otellonun səsi:** Hə, mən...

**Dezdemona:** Xudaya, Hifz elə məni ölümdən!

- Mən onu o dəqiqə gördüm. Zabit səhnənin qarşısında, qırağda, rampaya söykənmiş halda dayanıb. O, həyasızcasına, düz gözümün içinə baxıban, məni süzməkdədi. Tərəf müqabilim də zabiti görür və daha da gərginləşir. Ürəyimə damıb ki, bu saat nəsə baş verməlidi.

**Dezdemona:** Sərvərim, mürvətin çatsın hoyuma, qov məni, ancaq ki, ömrümə qıyma.

**Otellonun səsi:** Öl, fahişə!

**Dezdemona:** Sabah sən öldür məni, Möhlət ver, yaşayım yarımca saat.

**Otellonun səsi:** Yox, olmaz, dəyişməz heç nə qərarı.

**Dezdemona:** Bircə dəfə dua eyləyim , barı .

**Otellonun səsi:** Yox, olmaz, gecdir.

- Bu anda Otello məni boğmağa başlayır, özü də lap doğrudan. Boğazımın sıxılmağından, boğuluram, huşumu itirməkdəyəm. Birdən hansısa gözəgörünməz qüvvə məni qatilin əlindən alır. Məni tutub, tamaşaçı zalına, ordan da çıxışa tərəf aparırlar. Taksinin arxa oturacağında, yarısərxoş zabitin yanında özümə gəlirəm. O deyir, mən pilotam, mən sizi sevirəm. Mən elə ilk baxışdan, bu iri, qəmgin gözlü şıltaq oğlana aşiq olmuşdum. Onun teatrdan, mənimsə aviasiyadan heç bir təsəvvürümüz yox idi.

→

Elə ilk andan bir tam olduq. Uçuşdan sonra o, mənim dalımca gəlirdi və biz kafeyə, ya kinoya, ya da parka yollanırdıq. Bir- birimizi anlamaq üçün sözə ehtiyacımız yoxuydu... O ancaq səmanı və təyyarələri sevirdi. O, uçanda həqiqətən göylərnən yaşayırdı. Mənə demişdi ki, başa düş, burda, yerdə, hər şey quramadı, sünidir. Əslində hər şey, bax orda, göydədir. Bir dəfə, o gizlincə məni də aerodroma apardı və biz bir yerdə uçduq...

Mən uçuram, uçuram... mən yer üzərində süzürəm... Mən yarpağam, mən saçın bir teliyəm. Mənim üçün nə keçmiş, nə gələcək var, yalnız indi, bu möhtəşəm uçuş anları mövcuddur. Mən azadam, tamamilə azadam. Ehey, insanlar! Eşidirsiniz məni? Bəsdir bir-birinizi qırdınız! Biz bir torpaqda yaşayırıq,eyni havayla nəfəs alırıq, eyni suyu içirik. Bizim yer üzündə bölüşdürməyə heç nəyimiz yoxdur. Bir-birinizi sevin, bir-birinizin qədrini bilin!

**Zaldan səs:** "İnanmıram!"

**(Müəllim gəlir).** Sənsən, Müəllim?.. Mən yerə enmək istəmirəm! İstəmirəm! Sən necə, məni qısqanırsan? Məzəlidir! Danışma, sus! Sənə qulaq asmaq fikrim yoxdu. Xirtdəyə qədər eşitmişəm! Sənin nəzəriyyə və eksperimentlərindən ürəyim bulanır!.. Sən özün bir ilğımsan,xəyalsan... Bizim həyatımız nədir - oyun! Ha-ha-ha! Tüpürüm o oyuna. Mən yaşamaq istəyirəm, ey, yaşamaq! Mən insan nəvazişi üçün darıxmışam. Məhəbbət üçün!..

Bu nədir? Əllərim əsir? Səhnəyə çıxam gərək, mənimsə əllərim əsir. Yenə kimdir orda?.. Neçə dəfə tapşırmışam ki, tamaşa qabağı məni narahat etməsinlər.

**(Qəzet işçilərinin və informasiya verilişlərinin diktorlarının səsi eşidilir: "Səmadan enişdə təyyarə partladı...", "hərbi-hava qüvvələrinin təyyarəsi qəzaya uğradı...", "ekipajın bütün üzvləri həlak oldu... ").**

Yox!..Yox! Ola bilməz!

**(Saat əqrəblərinin səsi eşidilir. Mimlər hərəkət koordinasiyasını itirərək tərpənirlər və qeyri-adi vəziyyətlərdə donub qalırlar) .**

Boşluq!.. Sən onun zəngini eşidirsən? Səssizlikdən az qala adamın qulağı batır. Boşluq zəngi necə də qorxuncdur! Tik-tak, tik-tak! Qicgah ağrısının təkanları! Tik-tak! Hər bir saniyə məni öz balaca şahzadəmdən uzaqlaşdırır ...

**(Sent-Ekzüperinin " Balaca şahzadə" əsərindən parçanı oxuyur) .** "Sən gecə göy üzünə baxacaqsan, orda bir ulduz olacaq ki, mən orda yaşayıram, gülürəm və sən eşidəcəksən ki, bütün ulduzlar gülürmüş. Sənin gülməyi bacaran ulduzların olacaq... Hə, hə, mənim gülməyi bacaran ulduzlarım olacaq! Pəncərəni açacağam və mən səmaya baxıb güləndə dostlar təəcüblənəcək. Mən isə onlara deyəcəyəm. "Bəli, bəli, mən hər zaman ulduzlara baxanda gülürəm"!

→



**12.Obrazlar lövhəsi .**

**(Mimlər boş çərçivə çıxarırlar - obrazlar lövhəsi) .**

Obrazlar lövhəsi!.. Sən ya göylərə qədər qaldırır, ya da ümüdsüzlüyə düçar edirsən. Sənin yanına nəfəs dərmədən yaxınlaşırlar.

Mən məşğulam... Əlbəttə ki, bu rolu ancaq mən oynamalıydım. Əla pyesdir. Yox, əslində bizim başçımız böyük insandır! Böyük də istedaddır! Teatr onunla təzədən doğuldu... Alo, ana?.. Hər şey əladı. Rol?.. Özü də necəsi! Gəlib özüm danışaram!.. Yaxşı, yaxşı, ağlama!.. **(Lövhəyə yaxınlaşır və rol almamış aktrisaya dönərək)**

Əslində mən boşam... Belə sərsəm tamaşada oynamaqdansa!.. O nə pyesdir elə?!.. Yox, başçımız - Fərsizdir! Teatrı məhvə gedir...

**(Zala).** Aktyor ildə neçə rol oynaya bilər?.. Beş?.. On?.. Bəlkə əlində onun heç bir rolu da yoxdur?.. Bəzən bax beləcə ömür ötüb keçir. Bəzən dodaqlarını dişləməkdən qançır olur. Yaşlı bir aktyor yadımdadı. Nə vaxtsa məşhur olub, ancaq sonra ona artıq böyük rollar verilmədi və o "nahar hazırdı" kimi dilucu replikalarla baş girlədi. Bir dəfə rol lövhəsində adını görməyəndə, o, divara söykənib ağladı. Ona ürək-dirək verməyə çalışdılar, ancaq o toxtamaq bilmədi, elə hey ağladı haa... Səhər onun meyitini tapdılar.

**(Rol lövhəsinə).** Utanmırsan, ey rol lövhəsi! Sən mənə, adlı-sanlı, bu boyda stajı olan aktrisaya rol vermək istəmirsən... Ay-ay-ay!.. Nə mızıldanırsan, orda?.. Yaradıcılığı sönüb?.. Kimin-kimin?.. Mənim?.. Sənin nə ixtiyarın var mənnən belə danışırsan, ey sarsaq lövhə! Sən heç bilirsən, kimə baş qoşursan? Mən səni məhv elərəm!.. Mişar götürüb, mişarlaram! Torpağa basdırram!.. Heç kəs də səni, heç vaxt görməz!.. Lövhə yoxdusa, problem də yoxdu! Hi-Hi!

Hə,mən yenə də bomboş,bekaram. Primadonnanın çiçəyi çırtdayır, hakimiyyətdədi. Cəhənnəm olsun, mənim nə qulağıma?!

**13. Siyasətçi.**

**(Aktrisa paltarını dəyişir, özünə bəzək - düzək verir və restorana gedir. Onu - Mim - ağ salfetli Ofisiant əlində podnosla qarşılayır. O aktrisanı masaya əyləşdirir, içki gətirir. Mim - siyasətçi gəlir, onun əlində qara çəlik , boynunda ağ , uzun şərf var) .**

Əl çəkin məndən, mən oynamıram. Hə, mənim əhvalım yaxşı deyil. Heç. Siz kimsiz axı? Siyasətçi? Mən də aktrisayam. Güman edirsiz ki, bizim oxşar cəhətlərimiz çoxdur, hə? Hə də belə götürəndə, aktyor səhnədən, siyasətçi də kürsüdən yalan danışır. Çalışırsız yalan danışmayasız?.. Onsuz da siyasətçi dilindən hər hansı həqiqət çox vaxt abırsız yalan kimi səslənir...

→

Mənə kompliment deməyə bilərsiz, bunlardan çox eşitmişəm... Sizdə seçkiqabağı kompaniyadır? Təbriklər... Sizə mənim kimi, qadın lazımdır?...Olmaya siz mənimlə saziş bağlamaq fikrindəsiz?... Hər nə istəsəm? Maraqlıdır. Yaxşı, mən sizin təklif barədə fikirləşərəm. Sabah mənə zəng vurun. Yox, yaxşısı budu, bir ildən sonra. **(Ofisiant və siyasətçi qeyb olurlar . Aktrisa Şekspirin Hamleti qiyafəsində).**

Ölüm, ya ölüm, budur məsələ
Hansı şərəflidir? Azğın taleyin
Müdhiş oxlarına susub dözməkmi?
Ya qələbə çalmaq, ya həlak olmaq?
Ölmək - yuxulamaq, yalnız budur, bu!
Bununla ürəyin ağrılarını,
Əzəldən insanın nəsibi olan
Minlərlə dərdləri, iztirabları
Bir anın içində unuduruq biz.
Bumu gecə-gündüz dua oxuyub
Arzu etdiyimiz gözəl aqibət?
Ölmək - yuxulamaq, əbədi yatmaq,
Sonra yuxu görmək! Bax budur əngəl.
Biz canı qurtarıb işgəncələrdən
Ölüm yuxusunda nə görəcəyik?
Budur yolu kəsən, bu səbəb bizi
Məcbur edir çəkək ömrümüz boyu
Bütün zillətlətri, müsibətləri.

→



Yoxsa kim dözərdi, kim dözərdi, kim
Zamanın cövrünə, həqarətinə
Zalımın zülmünə, haqsızlığına
Lovğa əyanların təkəbbürünə
Tapdanmış sevginin əzablarına,
Acgöz hakimlərin əclaflığına,
Qansız nazirlərin sırtıqlığına
Hər cür şərəfsizin şərəfliləri
İyrənc təhqirinə, istehzasına?
Bunlardan əbədi qurtarmaq üçün
Bir xəncər zərbəsi kifayət ikən
Həyatın rəzalət yükü altında
Neçin sürünürük inildəyərək?
Bizi məcbur edir daim, həmişə
Çəkək bu tükənməz məşəqqətləri
Məlum əzablardan yaxa qurtarıb
Naməlum dərdlərə can atmayaq biz
Bu dəhşət qorxağa çevirir bizi,
Puç olur ağlımız, qətiyyətimiz,
Solur cürətimiz bir çiçək kimi
O böyük təşəbbüs, o ali məqsəd
İtirir adını, öz mənasını...

Mən razıyam, ey mənim siyasətçim. Mən sənə kömək elərəm, sən də mənə - teatr adlı bədheybəti ram etməyə kömək edərsən. Səni dahi siyasətçi kimi, məni də dahi aktrisa kimi sevəcəklər.

→

Bəli, Maestro, mən artıq sənə, məni oyuncaq kimi əlində oynatmağa imkan verməyəcəm. Bundan sonra burda hər şey - asılqandan tutmuş səhnəyə kimi mənə tabe olacaq. Sənin hökmdarın mən olacağam.

**(Aktrisa və Mimlər yüksək cəmiyyət xanımlarına çevirirlər).** Əzizim, sən həmişəki kimi valehedicisən. Ərin səni küçəyə tək buraxmaqla riskə gedir!.. Konfransda yubanıb? Lap yerinə düşdü. Mən səni bir nəfərlə tanış etmək istərdim... Nə buyurdunuz?

Siyasət ağır iş deyil, o əyləncədir... Siz xeyriyyəçiliyi üstün sayırsız? O, əlbəttə ki, daha incədir... Siz danışmağı xoşlayırsız, qulaq asmağı isə yox? Mən də əvvəllər başa düşmürdüm ki, bu bədbəxtlər uzunsürən parlament debatlarına necə dözürlər? Lakin izn verin, - düşüncə və bir də ağıl, bunlar eyni şeylər deyil. Özünü inandıran deputat, çox sərsəm məxluqdur. Sizin yoldaşınız seçkidə uduzub?... Təəssüf, səd heyif... Özünü pəncərədən atmaq istəyirdi? Bəs niyə atmadı?..

Qadınlara, brilyant kimi, lazimi çərçivə lazımdır... Yox, boşanmaq nəyə lazım? Sadəcə özünüzə məşuq tapın... Əgər qadının başı varsa, deməli onun məşuqu da olmamış deyil.

Ah, bu həyat - arası kəsilməyən kastinqdir. Seçilmişlərdən olmaq istəyirsiniz? Mübarizə aparın!... Cənablar! Mən siyasətçimin sağlığına şampan badəsi qaldırıram! Bu gün onun uğurlu günüdür! **(Kütlənin hay-küyü eşidilir).** Bu qələbədi, ey mənim siyasətçim! Eşidirsən, xalq necə şadlıq eləyir? O bizi çağırır, o öz istəkli şəxslərini görmək arzusundadır.

**(Böyük Yekaterina qiyafəsində. Primadonna gəlir).** Mən nə görürəm. Primadonna özünü itirmiş halda!.. Teatrdan atılmağına qorxursan?.. Atılacaqsan da! Sənin yerin sənət məbədində deyil, dolama fabrikində dəzgah dalındadı!.. Yaxşı, sakit ol, məndə kin yoxdu. Ancaq onu bil ki, indi buranın sahibəsi mənəm. Müəllim, bax, bu pullar, beş tamaşaya çatar. Hardan? Sənə qalmayıb. Mən özüm-özümə istədiyim qonorarı verib, rollarımı da özüm seçəcəyəm!..

**(Primadonna qeyb olur.Telefon zəngi səslənir. Aktris dəstəyi qaldırır).** Alo, kimdir?.. Qonşu?.. Dincəlməyi, o dünyada dincələrsən!.. Mənə gələn məktubları da oxuyursan... Olsun!.. Sinif yoldaşımdan məktub var?.. Yenə sevgi məktubudu?.. At onu... yaxşı, hələlik mənim burda işim çoxdu...

**(Dəstəyi qoyur. Mim - Qızılgül əlində qırmızı qızılgül gəlir).** Bu, kimdir?.. Təzə aktrisa?.. O qızılgül kimidir! Yaxşı, şahzadə obrazı sənin olsun.

⟶



**(Qızılgül gedir. Mim - Gözəlçə (oğlan) göy rəngli şərfdə gəlir).** Allahım, bu nə möcüzə! Sən mənə kimisə xatırladırsan. A, a, sən rejissorsan?! Tamaşa qoymaq istəyirsən? Sveyqin "Naməlum qızın məktubunu". Çox qəmli hekayətdir, mən hələ o əhvalda deyiləm... Amma sən məzəli oğlansan!..

**(Gözəlçə oğlan gedir. Müəllim gəlir).** Deməli belədi, müəllim... Bu işdən çıxarılanların siyahısıdır. Bu da başqa siyahı - ştata düşənlərin. Get, işinlə məşğul ol, məni hövsələdən çıxarma.

**(Müəllim gedir. Aktrisa Böyük Yekaterina qiyafəsində).** Sən məni tanımırsan, Maestro? Mənəm də, sənin kraliçan!

## 14. Oğulun ölümü.

Medeya! Tamaşanı təxirə salmaq lazımdır. Bu gün səhnəyə çıxmaq fikrim yoxdu. **(Qışqırır).** O kar qulağınla eşitdin, mən nə dedim? Tamaşanı təxirə salın!.. Sənin növbəti eksperimentin baş tutdu, Müəllim. Necə sujet, necə faciəvi sonluq! Aktrisa öyrənir ki, oğlunun narkotiki artıq düşüb və o ölüb. Aktrisa səhnəyə çıxmalıdı!.. Sən bilmirdin ki, real həyat uydurma həyatdan daha qorxuncdur?.. Yalan deyirsən! Mən də yalan deyirdim! Bu hadisədə biz ikimiz də müqəssirik. Sənə nifrət eləyirəm! Özümə də həmçinin! **(Müəllim gedir. Pianoda - sadə, həzin bir melodiya səslənir).**

Oğlum, mənim balam!.. Mənə deyirdi, ana, məni apar öz yanına, mən sən deyənə qulaq asacağam, yaxşı oxuyacağam, yetər ki, mən sənin yanında qalım. Ancaq ananın tamaşaları, qastrolları, pərəstişkarları, gəlib-gedənləri, aşıb-daşan anları var... Ananın teatrı var... Al oğlum, bu pulları, sənin heç bir şeyə ehtiyacın olmasın, ancaq mənim fikrimi yayındırma, mənə öz işimdə mane olma... Axı mən gələ bilmirəm, mənim qəbulum, mənim görüşüm, soyunub-geyinməyim, bərim-bəzəyim var. Əhvalın yaxşı deyil? Ancaq tapşırdım axı: həyat tərzini dəyişdir. Nə kömək lazımdı eləyim? Ancaq söz ver ki, məni dilxor eləməyəcəksən...

Dayanın!.. Tamaşanı təxirə salmayın... Mən səhnəyə çıxacağam... Çıxıram səhnəyə!

**(Medeya obrazında. Mimlər onun uşaqları kimi). (Medeyanın monoloqu).**

**(Medeyanın "uşaqları" gedir. Siyasətçi gəlir).** Mənim siyasətçim... Sən gördün, tamaşaçı məni buraxmırdı... O sevimli aktrisasına, teatra verdiyi qurbana - öz oğluna görə təşəkkür edir?.. Alqışlar da qəddar ola bilərmiş!.. Mənə yazığınız gəlməsin... Biz ayrılmalıyıq... İş səndə deyil. Mən yorulmuşam. İnanıram ki, sən nə vaxtsa prezident olacaqsan. Ancaq yalan danışma. Təkəbbürdən çəkin! Təkəbbürlü olmaqdan daima qorx! **(Siyasətçi gedir).**

⟶

## 15. Gecə teatrda.

**(Mimlər tarakan qiyafəsində).** Ey, o kimdir, zalda? Gedin, qoyun mən tək qalım... Gecənin bu vaxt da burda veyillənirlər!.. Qoymazlar tək qalım... Niyə? Mənim tək qalmağa ixtiyarım yoxdu?.. Primadonna elə bilir ki, mənim başım xarab olub... **(Primadonna qiyafəsində).** Əzizim, sən axı bizim ulduzumuzsan, özünə gəl! Tamaşadan sonra otağına girib, qapını bağlayırsan və içirsən, səhnəyə çıxıb və kiminləsə saatlarla danışırsan. Axı, bu nə deməkdir? Əcəb eləyib içirəm!.. Kimnən danışım? Bəlkə səninlə ay, qoca ifritə? Mənim dostum yoxdu. Aradım, fəqət tapmadım. Heç heyfslənmirəm də! Ümumiyyətlə insanları istəmirəm!

Dünyanın başı xarab olub. Hamının ağlındakı puldu, pul, ancaq pul!.. Mənsə ruhuma uyğun nəsə istəyirəm!.. Yox, bu təzələrlə mənimki tutmur. Elə sənnən də, Maestro, yollarımız ayrıdır. Çünki sən mücərrədsən. Sən olmamalısan, amma sən varsan. Səni dəli uydurub. Bir də ki, sən qəddarsan, nə qədər qəddarsanmış!.. Onu deyim ki, mən səni məhv etməyin üsulunu tapmışam. Orasını bildim ki, sən yoluxucu bir xəstəliksən. İnsanda sənə qarşı immunitet yoxdu. Sən orqanizmin hər bir hüceyrəsinə hopub, yaddaşı zədələyir, ruhu zəhərləyirsən. Mən özüm də artıq özüm deyiləm. Mən sən olmuşam. Sən başa düşdün, mən neynəyəsiyəm?.. Mən özümü öldürəcəyəm!.. İntihar! Özümü öldürərkən, səni də öldürəcəyəm!.. Hə, sözün nədi? Nə deyirsən?.. Ha-ha-ha! Tələyə düşdün?.. Asım özümü, ya zəhərləyim?.. Bəlkə damarımı kəsim?.. Bizim bir qrim ustamız ara-sıra özünü asırdı. Özü də həmişə eyni yerdə - bax burda, kulisin arxasında. Yadındadı o? Ya onunla kimsə kobud davranır, ya məşuqu onu atıb gedir, ya da ki, əhvalı lap dözülməz olurdu. Tez də gedib özünü asırdı. Hər dəfə də bəxti gətirirdi - onu ipdən çıxarırdılar. İndi başa düşürəm ki, intihar üçün o niyə məhz səhnəni seçirmiş? Təbiətən aktrisa idi! Ürəyində. Canına-qanına qədər aktrisa idi! Ölümünə qədər!..

Əlbəttə, sənin gözünün qabağında ölmək daha sərfəlidi, Maestro! Təsəvvürə gətir ki, necə də gözəl bir tamaşa alınardı! Elanı təsəvvür elə: "Sensasiya! Tamaşaçıların gözü qarşısında məşhur aktrisa intihar etdi!" Hay-küy! ...

**(Aktrisa və Mimlər xəbərçi qadınlara çevririrlər).** - Eşitmisiz?.. O deyibsə, doğrudan da bunu eləyər! Mən onu tanıyıram!

Ola bilməz! Yəqin, başı xarab olub!

Sizin, bizim başımız xarabdı, arada o milyon qazanacaq!

- Milyonu o dünyada neyləyir?

→



- Bəlkə o biri dünyadakı həyata inanmırsız? Mənim sizə yazığım gəlir!
- Cənablar, sakit olun, bunların hamısı piardır, reklam oyunu!
- Amma öz aramızda qalsın... Bu siyasi aksiyadır!.. Başa düşdüz? Ölçü götürmək lazımdır. Mən hara lazımdırsa xəbər vermişəm.
- Nə üçünsə ərzağın qiyməti artıb! Görən nə məsələdi?
- Bir az yavaş. Küləyin hardan əsdiyini çoxu anlamır. Mən bu məsələni parlamentdə qoyacağam.
- Deyirlər, məsələ artıq BMT-nin nəzarəti altındadır?!
- Siz heç nə bilmirsiz, bəşəriyyət uçurumun qırağındadı!
- Mənə 10 bilet, yox 20, yox ey, mənə 100 bilet verin. Nə? Orda nə qalıbsa, hamısını verin gəlsin!
- Necə yəni bilet yoxdur? Bəs sabaha, birisigünə, 1 ay sonraya?.. Nə? Təkcə bir tamaşa olacaq?.. Ciddidi, ya zarafat?..

**(Xəbərçi qadınlar yox olur).**

- Budur, mən səhnəyə çıxıram. Zalda ölü bir sükut hökm sürür. Tamaşaçı yerində donub qalıb...

**(İşıq sönür).** Bu nədi? İşığı kim söndürdü?.. İlahi, deyəsən, mən ayağımı sındırdım axı?!.. Siz kimsiz?.. Nə yapmışmısınız məndən?.. Nə lazımdır?.. Bəsdir məni xışmaladız, qışqıracağam bu dəqiqə!..

**(İşıq yanır).**

## 16. Gözəlçə oğlan.

**(Gözəlçə oğlan gəlir).** Sənsən, ay gözəlçə?.. Sən hara, bura hara? Gizlincə baxmaq, casusluq yaxşı iş deyil... Olsun, mən səni bağışladım. Nə dedin? Məni sevirsən?.. Bilmirəm mən bunun cavabında nə deyim?.. Guya ki, mən də səni sevirəm?.. Məhəbbət romanlarını oxumusan?.. Döyükmə! Naməlum qadını mən oynamaram. Dünyada sevgi, məhəbbət qalmayıb, ancaq nifrət qalıb! Nəsə maraqlı bir şey fikirləş... Sən doğrudan da məzəlisən!.. Axı sənin, istəyin nədi?.. Məni?.. İlahi, onun sözü ciddiyə oxşayır... Neynirsən, kobud?.. Polis, mənə öz evimdə təcavüz etmək istəyirlər. Kömək eləyin!.. İmdad!.. Çox hündürdən qışqırmıram ki?.. Barı qonşum eşitməyəydi... Sevirsən?.. Bunu eşitmək belə xoşdur. Həmişə sevmisən?.. Daha xoş oldu... Uşaqlıqdan? İlahi, yəni mən o qədər qocalmışam?..

→

Mənə sənnən ləzzət eləyir, ay Gözəlçə... Düz deyirsən, hələ hər şey irəlidədi. Mən indi istənilən rolu oynaya bilərəm... Kleopatranı?.. Böyük Yekaterinanı?.. Hə, hə, Cülyettanı da oynaram, sən əmr elәsən... De görüm məni atmazsan ki? Heç vaxt?.. Səni itirmək istəmirəm... Kaş, sevgimiz əbədi olaydı. Başa düşürəm, bu mümkün iş deyil, ancaq ürək bunu anlamaq istəmir... İlahi, zamanın ötüb keçdiyini mən necə də hiss edirəm!.. Sakit ol... Bunlar hamısı acı qeybət, qara paxıllıqdır, Gözəl oğlan, bunlardan üstün ol... Televizorda göstərmişdilər? Donuzlar! Axı nə üçün onlar şəxsi həyata belə burunlarını soxurlar?!.. Yox, sən mənim səlahiyyətlərimdən istifadə etmirsən! Sən şəxsiyyətsən, sən rəssamsan. Mən səni buna görə sevdim! Onlar başa düşmürlər ki, istedad rastlarına çıxıb... Sən, aktyorları, ilan topasını tanımırsan? Onlar hər hansı rejissoru diri - bütöv yeməyə hazırdılar!.. Neçə dəfə sənə ərz eləyim ki, sən istedadsız deyilsən! Sən gözə görükənsən, sən yaxşılar yaxşısısan! Hətta Müəllim sənin yanında heç nədi! Gözəl oğlan, hardasan? Rozanın yanında? Əlbəttə, o mənim yadımdadı. Sən istəyirsən ki, o mənimlə oynasın? Ondan, Karmen çıxar? Yox, yox qısqanmıram, sadəcə mənə həmişə elə gəlirdi ki, Karmen göründüyü kimi bəsit deyil... Bilmirəm, özün necə lazım bilirsən...

**(Yağışın səsi eşidilir).** Tələsmə, bir az da mənimlə qal. Görürsən bayırda yağış yağır. Uşaqlıqda mən yağışın altında ayaqyalın qacmağı xoşlayırdım. Təpədən-dırnağa islansam da, mənə o qədər ləzzət eləyirdi ki... Sonra bürünərək, yağışın səsi altında yuxulayırdım və yuxuda nağıllar aləminə düşürdüm... İlahi, həyat necə də tez ötüb keçdi! Geriyə baxmağa macal tapmadım... Yağış bütün izləri yuyub aparır... Bax beləcə, nə vaxtsa bizim səninlə ləpirimiz də həmişəlik yuyulub gedəcək...

Qəşəng oğlan, nə işdi daha yanıma az-az gəlirsən. Ona görə? Rozaya görə? Niyə dinmirsən?.. Danış da... Məni tək qoyma. Qorxuram. Söz verirəm ki, sarsaq suallar olmayacaq. Qısqanclıq da həmçinin... Getdi... Görünür, mən də artıq getməliyəm... Ay oğlan, mən naməlum qadını oynaram. Sən bunu istəmirdin?.. Hə, "Naməlum qadının məktubu" - mənim sonuncu rolum, səninsə ən yaxşı tamaşan olacaq. Mən teatrdan gedirəm. Ancaq sən bunu, ilk tamaşadan sonra biləcəksən...

**(Oğlan yox olur. Aktrisa Stefan Sveyqin "Naməlum qadın" obrazında).**

"Əlvida, əzizim, əlvida, təşəkkür edirəm sənə. Heç nəyə baxmayaraq hər şey yaxşı idi... Mən son nəfəsimə qədər sənə minnətdar olacağam. Mən sənə hər şeyi dedim, mənim səni necə möhkəm sevdiyimi bilirsən, eyni zamanda mənim sevgim sənə heç də yük deyil. Sən mənim üçün darıxan deyilsən - mənimçün təsəlli budur.Sənin gözəl,işıqlı həyatında heç nə dəyişməyəcək...

⟶



"öz ölümümlə mən onu qaraldacağam... Mənə təsəlli budu, əzizim. Kim... Bəs kim ad günündə sənə bəyaz qızıl güllər göndərəcək? Güldan boşalacaq, ildə bir dəfə səni əhatə edən mənim həyatımın yüngül əsintiləri, onlar da yox olacaq! "

### 17. Niyə heç kəs zəng vurmur?

**(Aktrisa önlük taxır, başını yaylıqla bağlayır).** Yox, bu dözülməzdir. Mən dəli ola bilərəm. Heç kəs gəlmir, heç kəs zəng vurmur. Bəlkə, orda teatrdakılar, elə bilir ki, mən dünya səyahətinə çıxmışam?.. Kimsə qapını döyür... Açıram, bu saat!..

**(Mim - Qonşu - qadın önlükdə gəlir).** Qonşu! Nə gəlmisən, burda çatışmayan elə bir səniydin. Yox məndə süd yoxdur, heç vaxt da olmayıb. 80-dən sonra süd ziyandır. Mən özüm üçün demirəm elə, sənin üçün də. Yaxşı, get də, görmürsən, əhvalım yoxdur... Qəbrstanlıqda özünə yer almısan?.. Təbrik!.. **(Qonşu qadın gedir).**

Qoca əylənir. Mən burda döyülmüş it kimi ulamaqdayam... Niyə heç kim zəng vurmur... Deyəsən orda heç nə başa düşmədilər. Elə güman etdilər ki, mən doğrudan da gedirəm. Bu adicə bir zarafat idi. Boynuma alıram, yaxşı olmasa da, hər halda zarafat idi. Müəllim sağ olsaydı, bunu anlardı və məni səhnəyə qaytarardı. Axı, bunu necə başa düşməmək olar?.. Lənətə gələsiz, vurun da!.. Yox, həqiqətən də, teatrı qəribə məxluqlar ələ alıb. Onlarda normal insanda olan hər şey var, təkcə başları yoxdur. Baş yerinə kompyuterdir. Kompyuterlə şirin söhbət qurmağa cəhd etsən - səni dəli sayacaqlar! Hətta oğlan da onların təsiri altına düşüb... Deyirlər, o Rozaya qoşulub gedib harasa.

**(Telefon zəngi çalınır).** Nəhayət ki! Alo! Kimdir?.. A, sənsən! Heç yerinə düşmədi. Vaxtım yoxdu, rol üzərində işləyirəm... Yaxşı. Gəlirsən, elə indi gəl. Gözləyirəm... **(Sinif yoldaşı gəlir).** Salam, ey mənim sinif yoldaşım. Maşaallah, yaxşısan. Bilirəm, kökəlmişəm, bunun da xeyri var... Necə yəni ölmüşəm? Bu məlumat səndə hardandı? Mətbuat, həmişəki kimi, yalan yazır. Əksinə yaxşıyam. Sən necəsən? Yəqin, uşaqların böyüyüb hə?.. Evli deyilsən?.. Boşanmısan?.. Heç vaxt evlənməmisən?.. Mənnən zarafatın var?.. Bütün bu illər boyu məni gözləmisən?.. İlahi, sən bunu nə ağılla eləmisən? Mənə bax. Mənim üstümə duz səpmək lazımdı ki, məni güvə yeməsin, sən elə əvvəlki havanı çalırsan!.. Romanlardan oxumusan! Biz səninlə xülya deyilik, real, gerçək insanlarıq. Neynək, hisslərimiz üst-üstə düşmədi. Bağışla məni, bir daha gəlmə... Yox, gözlə. Əgər eşitsən ki, mən ölmüşəm, inanma. Mən heç vaxt ölməyəcəyəm, heç vaxt ölmək fikrim də yoxdu...

(Sinif yoldaşı gedir. Aktrisa əynini dəyişir və bara gedir).

⟶

## 18. Sərxoş barda.

**(Aktrisanı Mim-Ofisiant qarşılayır. İkinci Mim şəkil çəkən makinalı müxbiri təsvir edir).** Ey, barmen, viski ver görüm! Mənimlə içərsən?... Gözüm atırdı səninçün. Heç lazım da deyil. Qulaq as, cənab 420, sən haçansa ölüm haqqında düşünmüsənmi? Tutalım, sən ölmüsən. Aynadakı əksin, ona nə oldu? Bura bax, **(güzgünü göstərir)** öz sifətinə. De görüm, sən harda əsilsən - burda, ya orada? Bax, mən də bilmirəm, hansındayam. Birincidə, ya ikincidə... Bəlkə, hələ üçüncüsü də var və dördüncü? Mən sənə xəlvəti deyim - mən öz simamı itirmişəm. SS! Bu üz deyil, bu maskadır... Sifət isə yoxdur. O itib, yox olub. Fikirlə, düşüncəylə birlikdə. Mənim başımda bir dənə də olsun öz fikrim yoxdur, hamısı özgənindi!... Bu peşəkar xəstəlikdir. Tez - tez başqalaşmaqdan... Gülmədin ki? Heç gülməli də deyil. Qorxuncdur!.. Adım nədir? Sən kimnən olmaq istərdin? Antiqona, Yekaterina Mediçi, Edit Piafla?.. Nə oldu, yadına düşdüm? Yox?.. Bəs siz,.. Siz?.. Lənət olsun!.. Mən axı aktrisayam! Yenə yadına düşmədim?. Yox?.. Yox?..

**(Müxbir irəliyə çıxır).** Hə? Axır ki, qarşımda təpədən-dırnağa mədəni bir insan görürəm!

**(Aktrisa Müxbiri öz masasına dəvət edir).** Deməli, sən jurnalistsən?! Onda bizim yollarımız ayrıdır . Məndən müsahibə almaq fikrin var? Mənim əhvalım yoxdur axı, əhvalım olmayandasa əsəbləşirəm və artıq-əksik danışıram... Sən mənə qulaq asmağa hazırsan? İzn ver... Ey, barmen, yenə viski. Mənnən içərsən? Özün bil. Hə, biz harda qaldıq? Teatr mənim üçün nədir?.. Başa düşmədin? Mən də hərdən nə danışdığımı anlamıram... Xoşbəxtlik nədir? Heç yerin ağrımırsa... Mənim arzum varmı? Var. Hər zaman eyni, əməlli-başlı keflənmək, sərxoş olmaq! Həyat nədir? Təxəyyül və reallığın şeytan oyunu... Hansı rolu mən hələ oynamamışam? Elə rollar mövcud deyil!.. Hərçənd, yalan deyirəm. Mən hələ özümü oynamamışam!.. Dayan, bu ideya ağlıma batdı!.. Mən hələ özümü oynamalıyam!

## 19. Dəfn.

**(Qonşu qadın gəlir)**

- Qonşu, sən mənə lazımsan. Mənim təzə rolum var. Rol deyil, bir aləmdir. Sonra təbrik elərsən. Nefertiti eşitmisən? O fahişə zad deyil. Aktrisa da deyil. O Misir fironunun xanımı, bütün dövrlərin ən gözəl qadınıdır. Yox, mənə plastik əməliyyat lazım olmayacaq. Mənə ölmək lazım olacaq... Bax belə, tabuta uzanmaq. Gözünü nə bərəltmisən? Planıma qulaq. ⟶



- Şayiə yayacaqsan ki, mən guya infarktdan ölmüşəm. Deyərsən ki, ölməmişdən əvvəl səndən xahiş etmişəm ki, məni Nefertiti obrazında dəfn etsinlər. Özün də yaxınlarım mənimlə vidalaşmağa gələndə pusquda durarsan. Tabutun yanında dur! Xüsusilə fikir ver ki, mənə cox da yaxınlaşmasınlar, ya da öpməsinlər... Bu maskarad kimə lazımdı?.. Axmaq suallar vermə!.. Nə dayanmısan? Teatra zəng vur! Dayan. Sən nəyə sevinirsən, nəyə də sevinmirsən? Mən elə bilirdim, əgər mən doğrudan-doğruya ölsəydim, sən qəşş eləyərdin. Sən guya dərd içindəsən, ay səfeh! Səsində qəm olsun, qəm! Zəng vur!

**(Qonşu qadın yox olur).** Məni teatra gətirirlər.

**(Mimlər içərisində Aktrisa olan tabutu səhnədə gəzdirirlər).**

- Niyə belə arxayın? Tez, cənablar, siz tamaşanın ahəngini pozursuz. Tamaşaçı usanıb, bufetə qaçacaq...

Necədi, Maestro? Belə sonluq gözləmirdin? Matəmə bürünmüsən. Qurdun yediyi quzuya yazığı gəldi.

**(Aktrisa Nefertiti obrazında. Mimlər fəxri qaraulda donub qalırlar).** Lənət şeytana, mən rahatlana bilmirəm... Əlim-ayağım quruyub, bədənim büzüşüb, havam çatmır. İlahi, yaman susamışam! Nə hamburger yeyərdim, üstündən koka-kola. İri stəkan koka-kola... Döz-döz!.. Aha, zala camaatı buraxırlar. İndi dayan... Qonşum da hara yox oldu? Ona demişdim axı, bir addım da məndən aralanmasın! Bu kimdi üstümə yıxılan? Hönkürür... Ay camaat, bu heyvanı üstümdən götürün. Mən onu tanımıram!.. Sakit... Fikrimi cəmləyim, nəsə neytral bir şey barədə düşünmək lazımdı. Məsələn, Nefertiti barədə. Deyirlər ki, o bu yekə tacı başına qoymaq üçün saçını qırxırdı! Dəlixanadı!.. Daha gül lazım deyil, cənablar, kulminasiyanı gözləyin, nəfəs ala bilmirəm!.. Gözümün ucu ilə o Gözəl oğlanı görürəm. Nə olub, o mənə nəsə şübhəynən baxır? Yanında da Roza... Yaxınlaşsa, şaqqalayaram onu... Sən guya belə deyildin, hə? Heyif ki, sən məni belə tez unutdun... Hamının üzündə nəsə bir inciklik var! Başımıza gətirdiyinə bax birdən-birə düşdü və öldü! Biz indi onsuz neyniyəcəyik? Yalançılar! Maraqlıdır, onların sifətinə baxmaq istərdim, biləndə ki... Təntənəli, guya ki, niskilli çıxışlar başladı, deməli, final yaxınlaşır... Mən 17 dəfə görkəmli, 2-3 dəfə dahiyəm. Və ya 24? Hesabı itirdim. Həyacandandır, hesabı itirirəm... Artıq tezliklə... Lap tez... İlahi, onlar məni panteonda divara hörmək istəyirlər. Mərmərin altına. Bu ondan ötrüdü ki, mən Allah eləməmiş xortdayıb, bir də rol istəməyə gəlməyim... Bax lap, ta indi... Yox, hələ var... Ey, Sinif yoldaşım! Sən də burdasan? Nə əcəb?! Sənə demişdim axı, mənim ölmək fikrim yoxdu. Sən ağlayırsan?.. Ağlından məni öpmək keçir?.. Bəsdir, durmağın vaxtıdır!..

**(Səhnənin dərinliyində, üstündə nəhəng teatr maskası təsvir olunmuş pərdə enir. Aktrisa yavaş-yavaş dikəlib, tabutdan qalxır, tacı çıxarır və qəhqəhə ilə gülür).**

⟶

Bunu görmək lazım idi! Zalda aləm qarışdı! Kimisi heyrətdən ağlayır, kimisi mənasız yerə heç nə anlamadan başını bulayır, kimisi əsəbi halda car çəkirdi ki, belə şey ola bilməz, bu kütləvi gipnozdu, huşunu itirən də vardı... Pərəstişkarlarım məni teatrdan çıxardılar - tabutda yox , - əllərinin üstündə! Onlar məni bütün şəhərdən keçirərək evimə qədər gətirdilər. İnsanlar yol kənarında dayanıb, çiçək atır və hönkür-hönkür ağlayırdılar. Mənzərəni təsəvvür edirsən? Şəhərdə təntənəli mərasim izdihamı hərəkət edir, onların başında da ölməz kraliça Nefertiti! Bu, mənim ən yaxşı rolum idi!

## 20. Teatrla vidalaşma.

**(Ürək döyüntüləri eşidilir. Aktrisanın halı pisləşir. Mimlər onu tutub, səhnə önündəki stula əyləşdirirlər. Onlardan biri ona bir stəkan su verir. Aktrisa özünə gəlir. O Mimin üzündən maskanı dartıb çıxarır, ancaq maskanın altında daha bir maska, eynilə onun bənzəri vardır...)**

Budur, bu da axırı!.. Artıq mən sənsiz yaşamağı öyrənirəm, Maestro... Görürsən ki, kastinqlərə gedirəm. Xoşa gəlməyə, nəyə isə qadir olduğumu sübut etməyə çalışıram. Bu nə qədər çətindirsə, o qədər də təhqiramizdir...

**(Mimlər Aktrisaya onun plaşını, bəyaz şəffaf şərfini çiyninə atırlar, Aktrisa plaşı götürür, birdən səhnənin portalına atılır).**

Ah, Maestro, buraxma məni, buraxma! Gedim! Mən sakit oturacağam, səssiz dolanacaq, hamını sevəcək, hamıya tərif yağdıracağam!.. Bu çox fərəhlidi!.. Bu sizin ən fərli işiniz oldu!.. Öz özünüzü üstələdiz!.. Sən hələ mənə təzə rollar verəcəksən. Balaca, bap-balaca. Beləcə mən sevincimdən göyün yeddinci qatında olacağam...

Mən sənə nə boyda nifrət edirəmmiş!.. Elə o boyda da səni sevirəm!.. Bax belə, bu da son!.. Ata, mənə işıq ver, ana, sözləri yadıma sal, oğlum, qoy sənin ən sevimli musiqin qulağımda səslənsin. Sən də, ey mənim tamaşaçım, üz çevirib getməyə tələsmə. Pərdə hələ enməyib, tamaşa sona çatmayıb. Bəyaz rəqs elan olunub... Eşidirsən, Maestro? Mən səni rəqsə dəvət edirəm! İnanıram ki, sən öz sevimli aktrisana yox deməzsən...

⟶



## 21. Bəyaz rəqs.

**(Qeyri adi musiqi eşidilir. Rəngarəng projektorlar alışıb yanır. Aktrisa Mimlərə reveransda təzim edir, onları elə bil rəqsə dəvət edir. Pərdələr, dekorlar hərəkətə gəlir. Xüsusi effektlər bir-birini əvəzləyir - qar, külək, tüstü. Zalın müxtəlif yerlərində şamlar alışır. Aktrisa teatrda özünün sonuncu - bəyaz rəqsini oynayır. Yuxarıdan bayramsayağı kiçik lampalarla bəzədilmiş yelləncək enir. Mimlər aktrisanı yelləncəyə mindirir, və qeyb olurlar. Elə bil ki, Maestro öz məhəbbətini yelləyir. Budur Aktrisa və yelləncək qeybə çəkilir, hər yer qaranlığa qərq olur. Qəfildən projektorun işığı yanır və yuxarıdan səhnəyə Aktrisanın bəyaz şəffaf şərfi enir).**

## 22. Təzim.

Tamaşaçı zalında işıq tədricən güclənir və budur, artıq hər yer işıqlanır. Səhnə yenə də boşdur, əvvəlki vəziyyətdə. Artıq asılqandakı kostyumlar, pariklər, əlbəsələr yoxdur. Ancaq stulun arxasında Aktrisanın plaşı yetimsayağı asılıb qalıb. Elə bil ki, təzim olmayacaq - tamaşa bitib və paltonun arxasınca qarderoba tələsmək lazımdır. Birdən, - lap möcüzədir, - musiqi səsi eşidilir - səhnə yenə əvvəlki hala düşür, rəngarəng projektorlar yanır, fəhlələr, dərzilər, qrimçilər, işıqçılar, səs ustaları, rəssamlar, və s. səhnəyə çıxırlar. Budur onlar aralanır və səhnənin dərinliyində əlində gül dəməti tutmuş Qadın, iki maskasız Mimin müşayiəti ilə daxil olur. O öz şərfini qaldırır və səhnə önünə tamaşaçıların yaxınına gəlir. Uzun al qırmızı don geyinib, bəzənib-düzənib. O cavandır, gözəldir, əsrarəngizdir. Teatrın özü kimi həmişə cavan, təravətli və qeyri - adi. Və bu cazibədar məxluqda Aktrisanı tanımaq çətindir.

**Son**

<u>**Yeri gəlmişkən:**</u> *"Sevimli aktrisa üçün bəyaz rəqs" pyesinin ilk tamaşası müəllifin öz quruluşunda A.S.Qriboyedov adına Tbilisi rus dram teatrında göstərilib. Baş rolu müəllifin həyat yoldaşı Gürcüstanın əməkdar artisti İraida Kvijinadze oynayıb.*